## “Tibbi sığorta haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4 (Cild I); 2024, № 11, maddə 1182, № 12 (II kitab), maddələr 1332, 1348; 2025, № 1, maddə 16, № 3, maddə 218, № 8, maddə 743, № 11, maddə 1008, № 12 (I kitab), maddə 1118; 2026, № 3, maddə 205) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1.17-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.1.18-ci maddə əlavə edilsin:

“1.1.18. **icbari tibbi sığorta fondu** – dövlətin mülkiyyətində olan, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən idarəçiliyi həyata keçirilən və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondu.”;

1.2. 15-3.5-ci maddədə “icbari tibbi sığorta üzrə məlumat bazasına (elektron informasiya ehtiyatına)” sözləri “bu Qanunun 15-27-ci maddəsində nəzərdə tutulan informasiya sisteminə” sözləri ilə əvəz edilsin;

1.3. 15-13.1-ci maddədə “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron” sözləri “bu Qanunun 15-27-ci maddəsində nəzərdə tutulan” sözləri ilə əvəz edilsin;

1.4. 15-27-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 15-27. **İcbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların elektron qaydada həyata keçirilməsi**

İcbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.”.

**Maddə 2.** “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386 (Cild I); 2024, № 5 (I kitab), maddələr 501, 503; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322, № 12 (I kitab), maddə 1118;

2026, № 1, maddələr 8, 16) 1.0.17-ci maddəsindən “və reabilitasiya imkanlarının” sözləri çıxarılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2026-cı il
№ 464-VIIQD